Leyla Məcidova

Dünya niyə sevilməsin?

Bakı – Ecoprint – 2026

Redaktor: **Məsudi Dövran,**
filologiya elmləri doktoru, professor

Leyla Məcidova
Dünya niyə sevilməsin?
Bakı, "Ecoprint", 2026, 94 s.

"Dünya niyə sevilməsin?" kitabı Leyla Məcidovanın oxucuları ilə ilk görüşüdür. Kitabda doğma Azərbaycanın, o cümlədən müəllifin boya-başa çatdığı Lənkəranın tarixi keçmişi, ildən ilə tərəqqisi, ecazkar təbiəti, habelə qlobal problemlərlə üzləşən Dünya üçün narahatlığı yüksək poetik ifadəsini tapıb. Eyni zamanda kitabda yer alan poetik nümunələrdə saf və təmiz məhəbbət duyğuları tərənnüm olunur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-29-076-9

© Leyla Məcidova

ÖN SÖZ VƏ NARAHATLIĞIN POETİK ƏKS-SƏDASI

(Leyla Məcidovanın "Dünya niyə sevilməsin?" şeirlər kitabı haqqında bəzi qeydlər)

Leyla Məcidova hər şeydən öncə tarixçi-alim kimi tanınır. Hazırda Lənkəran Dövlət Universitetində dərs deməklə bərabər həm də Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin direktorudur. Rayonun müxtəlif tədbirlərində onun alovlu, məntiqi çıxışlarını çox dinləmişik. Lakin heç kəs bilmirdi ki, Leyla xanım həm də, poetik istedada malikdir. Hansısa bir ədəbi-bədii tədbirdə səsləndirdiyi "Azərbaycan" adlı şerindən sonra biz bunu bir daha yəqin etdik. Demə təvazökarlıq ucbatından yazdığı şeirləri üzə çıxarmırmış. Maraqlandığımızı görüb bir dəfə özünəməxsus təvazökarlıqla dedi: -Fikrimcə, zəif yazar olmaqdansa fəal oxucu olmaq daha yaxşıdır...

Poetik nümunələrini nəzərdən keçirəndə belə qənaətə gəldik ki, Leyla xanım heç də zəif yazar deyil, onun özünəməxsus yaradıcılıq üslubu, dəst-xətti var. Axıcı dilə, obrazlı deyimlərə, zəngin bədii ifadə vasitələrinə malik şeirlərinin işıq üzü görməsi zərurət idi. Bizim məsləhətimizlə müəllif "Dünya niyə sevilməsin?" adlı şeirlər kitabını oxucuların mühakiməsinə verməyi qərara aldı....

Leyla xanımın öz kitabına belə bir ad seçməsi heç də təsadüfi deyil. Oxucu sual qarşısında qalır: Dünya niyə sevilməsin? Fikirləşirsən ki, sual düzgün qoyulub. Axı, bütün təbii sərvətlərini, naz-nemətlərini, bol suyunu, təmiz ab-havasını, təbii işığını ....bizdən əsirgəməyən dünyanın özünün

də sevilməyə haqqı var. Kitabda yer alan eyni adlı şeirdə oxuyuruq:

Naz-nemət də ondan gəlir,
Səxavət də ondan gəlir.
Məhəbbət də ondan gəlir,
Dünya niyə sevilməsin?!

Və yaxud:

Bizi sevir, bu, bir haqdır,
Özü sevgiyə möhtacdır.
Sanki biz yox, o qonaqdır,
Dünya niyə sevilməsin?!

Göründüyü kimi bu misraların izahata heç bir ehtiyacı yoxdur. Lakin müəllif bununla belə insan oğlunun nankorluğuna, xəyanətinə, haqsızlığına göz yuma bilmir. Tanrı əmanəti kimi bizə verilən dünyanın təmiz, şəffaf, ləkəsiz olduğuna diqqət çəkərək aşağıdakı misralarda ifadə etdiyi fikirləri oxucusu ilə bölüşür:

Götürməyir haqsızlığı,
Xəyanəti, azğınlığı.
Pozulubdu tarazlığı,
Dünya niyə sevilməsin?!

Müəllif dünyada halalın harama qarışdığı, haqq-ədalətin tapdalandığı, ecazkar, füsunkar təbiətin məhv edildiyi....ilə heç cür barışa bilmir. Hələ bu azmış kimi haqlı olaraq diqqəti dünyanın savaş meydanına çevrilməsinə, super güclərin azğınlaşıb kiçik dövlətlərin torpaqlarını, təbii sər-

vətlərini ilhaq etməsinə yönəldir və dünyanın haqqını onun əlindən alınması, başqa sözlə desək, batırılması qənaətinə gəlir:

Od bürüyüb yer üzünü,
Tanımırsan çöl-düzünü.
Eşidən yox haqq sözünü,
Dünya niyə sevilməsin?!

Təbiidir ki, Leyla xanım üçün dünya Vətəndən başlanır. Elə buna görə kitabda yer alan şeirlərin əksəriyyəti Vətən sevgisindən qaynaqlanır. Müəllif haqlı olaraq Qafqazda lider dövlətə çevrilən, dünyada artıq söz sahibi olan, bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edən, füsunkar təbiəti ilə diqqət çəkən doğma Azərbaycanı tərənnüm predmetinə çevirir. Eyni zamanda qürurla doğma yurdun tarixi keçmişinə nəzər salır, dünya ədəbiyyatının korifeyləri-Nizamini, Fizulini, Nəsimini .....xalq qəhrəmanları ulu Babəki, Cavanşiri, Şah İsmayıl Xətaini, azadlıq mücahidləri Səttərxanı, Seyid Cəfər Pişəvərini.....dönə-dönə xatırladır. ”Odlar yurdum, Azərbaycan “ şeirində oxuyuruq:

Qəlbin açıq qonaq üçün,
Qüdrətin var sınaq üçün.
Min nemətli torpaq üçün,
İgidlərin veribdi can,
Odlar yurdum, Azərbaycan.

Xalqının qəhrəmanlıq tarixi ilə qürur duyan müəllif bugünkü böyük zəfər sevincini də paylaşmağı özünə mənəvi borc sayır. Göstərir ki, mənsub olduğu xalq heç vaxt işğalla barışmayıb, zaman-zaman güc toplayaraq ayağa qalxıb,

azadlıq savaşına başlayıb. Artıq Qarabağın da 30 illik işğalı arxada qalıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəlik məharəti, Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində müstəqil ölkəmizin suverenliyi tam bərpa edildi. Məğlubiyyət ləkəsi xalqımızın üzündən silindi. Lakin böyük zəfərin təntənəsi, sevinci ilə bərabər ürəklərdə şəhid niskili, şəhid dağı var:

Şəhidlərdir ürək dağın,
Azad olub Qarabağın.
Alov saçan od-ocağın
Şəhidlərdən bir ərməğan ,
Odlar yurdum, Azərbaycan.

Vətən çətin gündə, bərk ayaqda həmişə öz böyük övladlarına arxalanır. Azərbaycan xalqının dahi oğlu, Ümummilli lider Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirərək məhz belə bir yüksək məqama ucalıb. Leyla xanım çox haqlı olaraq öz milli mənsubiyyəti ilə qürur duyan, ömrünü xalqına bağışlayan Ulu Öndəri rus xalq əfsanəsinin qəhrəmanı Dankoya bənzədir. Əfsanədə deyildiyi kimi, Danko öz ürəyini məşəl edərək xalqını qaranlıq aləmindən xilas edir. Heydər Əliyev də həyatını təhlükə qarşısında qoyaraq Bakıdakı qanlı yanvarı Moskva bəyanatıyla bütün dünyaya yaydı:

Təhlükədə qoyub öz həyatını,
Yaydı qanlı yanvar bəyanatını.
Bölüşdü xalqının toy-büsatını,
Ən uca məqama çatdı Öndərim.

Ulu Öndərin ləyaqətli davamçısı olan möhtərəm Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab İlham Əliyev isə Qarabağın fatehi kimi qəhrəmanlıq tariximizin daha bir şanlı səhifəsini yazdı. Təsadüfi deyil ki, kitabda dövlət başçısına həsr olunan "Qalib baş komandan" şeirində O, öz dövrünün qalib sərkərdəsi və qəhrəmanı kimi səciyyələndirilir. Şeirdə oxuyuruq:

Bir ordu yaratdın yenilməz, mətin,
Daddıq sevincini qalibiyyətin.
Sildin hər izini məğlubiyyətin,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Kitabda Leyla xanımın təbiət, duyğuları, həyat və zaman haqqında poetik düşüncələri də yer alıb. Onun fikrincə təbiətsiz Vətən, Vətənsiz təbiət yoxdur. Təbiətin mühafizəsi isə ümum dövlət əhəmiyyətli iş kimi önə çəkilir. Xüsusilə Ulu Öndərin təbiət sevgisi, Azərbaycan təbiətinin mühafizəsinə diqqət və qayğısı örnək göstərilir. Bu baxımdan "Təbiət sevgisi" şeri daha səciyyəvidir. Təbiəti məhz Ulu Öndər kimi sevməyə çağırış ruhu hakim olan bu şeirdə aşağıdakı misralara diqqət edək:

Dedi kimsə kəssə bircə budağı,
Elə bil əlimdən kəsir barmağı.
Oldu bir millətin yaşıl çırağı,
Təbiət sevgisi Ulu Öndərin.

Müəllifin təbiət sevgisindən doğan fikirləri daha geniş coğrafi ərazini əhatə edir. Bu sevginin əsas hədəflərindən biri də boya-başa çatdığı, "Cənub mirvarisi" sayılan doğma

Lənkərandır. Təbiət bu yerdən heç nəyini əsirgəməyib. Əsrlərin şahidi qocaman Talış dağları, mavi Xəzər, YUNESKO-nun Ümumdünya siyahısına salınmış qədim Hirkan meşələri, nadir quşların məskəni sayılan Qızılağac Milli parkı, dünyanın heç yerində təsadüf olunmayan dəmirağacları.....bu yerin təbiətini bənzərsiz edir. Belə təbii gözəlliklərin qoynunda dünyaya göz açan şair ola bilməzdi ki, füsunkar Lənkəran təbiəti ilə bağlı poetik düşüncələrini oxucuları ilə bölüşməsin. ”Lənkəran” şeiri bu baxımdan diqqəti cəlb edir:

Meşə nağılını dinləyib gerçək,
Məxmər çəmənində uyuyan gərək.
Adın var, bir Cənub mirvarisi tək,
Cənnətə açılıb gözün, Lənkəran.

Müəllif həmişə sahilinə tələsdiyi, məcrasına sığmayan dəlisov dalğalarının pıçıltılarını, qağayılarının kövrək nəğmələrini dinlədiyi Xəzəri mehriban ana, hər şeyi əks edən ayna və mavi dünya kimi özünəməxsus ilhamla vəsf edir:

Hamıya mehriban anasan indi,
Hər şeyi əks edən aynasan indi.
Özün də bir mavi dünyasan, indi,
Borcluyuq övlad tək sənə, Xəzərim.

Və yaxud:

Adətən dost ilə dil tapır insan,
Sevgili gənclərə olmusan ünvan.
Qəlbini həmişə sənə boşaldan,
Sənə üz tutubdur yenə, Xəzərim.

Göründüyü kimi, bu poetik misralarda ana təbiətin şah əsərlərindən biri olan Xəzər təkcə zəngin balıq sərvətinə malik iri su hövzəsi kimi deyil, həm də sevinc və kədərini onunla bölüşməyə tələsən insanlara, habelə qızıl qumlu sahillərinə qoşa iz salan sevgili gənclərə bir ünvan, həmsöhbət kimi təqdim edilir.

Məhəbbət ədəbiyyatımızın əzəli və əbədi mövzusudur.Elə bir sənətkar tapmaq çətindir ki, öz yaradıcılığında bu mövzuya müraciət etməsin. Saf, təmiz sevgi duyğularının tərənnümü Leyla xanımın yaradıcılığından da yan keçməyib. Onun məhəbbət poeziyasında aşiqin öz sevgilisinə qovuşmaq yolunda çəkdiyi iztirablar, yaşadığı kövrək hisslər və vüsala yetişmək ümidi önə çəkilir.

Yetər, daha getmə göylə,
Gileyini açıq söylə.
Aşiqini qəbul eylə,
Səni deyib gəlmişəm mən.

"Səni deyib gəlmişəm mən" şeirindən götürdüyümüz bu misralarda sevgilisinin təkəbbürü, şıltaqlığı ilə bərabər aşiqin yalvarışları da diqqətə çatdırılır. "Bu həsrətin sonu varmı görəsən?" adlı başqa bir şerində isə həsrətin, hicranın yolu nə qədər uzaq olsa da, aşiq sarsılmır, sevgisi yolunda sonadək mübarizə aparmaq qüdrətini nümayiş etdirir. Başqa sözlə desək, şeir heç də bədbin, düşgün əhval-ruhiyyə ilə yüklənməyib, nikbinlik əsas qayə kimi qabardılır:

Hər zaman bu sınıq könlüm sənlə,
Özüm səndən ayrı, ruhum sənlə.
Hissim, həyəcanım, duyğum sənlə,
Bu həsrətin sonu yoxmu görəsən?

Və ya başqa bəndə diqqət edək:

Baxıram Günəşə, baxıram Aya,
Sənsiz ötən ömrü almıram saya.
Hər gün yalvarıram Uca Tanrıya,
Bu həsrətin sonu yoxmu görəsən.?

Biz "Dünya niyə sevilməsin?" kitabının geniş təhlilini qarşıya məqsəd qoymamışıq. Sadəcə olaraq Leyla xanım Məcidovanın bir şair kimi bəzi sənətkarlıq məziyyətlərini diqqətə çatdırdıq. Fikirlərimizi paylaşarkən belə qənaətə gəldik ki, bulaq suyu kimi saf, şəffaf poetik dilə malik olan bu kitab geniş oxucu auditoriyası qazanacaqdır.

Məsudi Dövran,
Filologiya elmləri doktoru, professor

Şeirlər

Azərbaycan

Yağlı tikə yad gözündə,
Bir ləkə yox nur üzündə.
Sərvətin var çöl-düzündə,
Təbiətin cana dərman,
Odlar yurdum, Azərbaycan!

Nizaminin özü səndə,
Fizulinin sözü səndə.
"Ənəl həqqin" düzü səndə,
Şöhrətinə sığmır cahan,
Odlar yurdum, Azərbaycan!

Şah babanın cəngi səsi,
Veribdi zəfər müjdəsi.
Gəlib qeyrət əfsanəsi
Ulu Babək, Koroğludan,
Odlar yurdum, Azərbaycan!

Qəlbin açıq qonaq üçün,
Dözümün var sınaq üçün.
Min nemətli torpaq üçün
İgidlərin veribdi can,
Odlar yurdum, Azərbaycan!

Şəhidlərdir ürək dağın,
Azad olub Qarabağın.
Alov saçan od, ocağın
Şəhidlərdən bir ərməğan,
Odlar yurdum, Azərbaycan!

Ulu Heydər ürəklisən,
Pişəvəri diləklisən.

Bol rüzulu, çörəklisən,
Pay vermədin torpağından,
Odlar yurdum, Azərbaycan!

Qəhrəmanlıq tarixin var,
Qılınc çalıb mərd babalar.
Qanda üzüb el-obalar,
Neçə hərbə oldun meydan,
Odlar yurdum, Azərbaycan!

Bayrağına çiləndi qan,
Enib qalxdı zaman-zaman.
Yollarına çökdü duman,
İşıq gəldi Səttarxandan,
Odlar yurdum, Azərbaycan!

Araz çayı axır yenə,
Bir həsrət yaşadır sənə.
Şəhriyarın ürəyinə
Gəl şəfa ver azadlıqdan,
Odlar yurdum, Azərbaycan!

"Heydər babanın salam" ı
Gerçək etdi arzu-kamı.
Qorudun sən din-imanı,
Sevgin Tanrıya bir ümman,
Odlar yurdum, Azərbaycan!

Övladın tək ana yurdum,
Qucağında yuva qurdum.
Soyumayır sevgi odum,
Sənə bağlıyam hər zaman,
Odlar yurdum, Azərbaycan!

Ulu Öndər

Hər kəsin milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən Azərbaycanlıyam ....

Heydər Əliyev,
Azərbaycan xalqının Ümummilli lideri.

Ana təbiətin gül baharı tək,
Doğuldu bir elin xilaskarı tək.
Ürəyi təmizdi qüzey qarı tək.
Haqqın düz yolunu tutdu Öndərim.

Təhlükədə qoyub öz həyatını,
Yaydı qanlı yanvar Bəyanatını.
Bölüşdü xalqının töy-büsatını,
Ən uca məqama çatdı Öndərim.

Gənclərə xüsusi diqqəti vardı,
Rəhbər tək yenilməz qüdrəti vardı.
Xalqını tanıtmaq niyyəti vardı,
Fəqət arzusuna yetdi Öndərim.

Vətəndən vətənə gələn qaçqının,
Keçmədi üstündən halal haqqının.
Müsibətlər görən doğma xalqının
Ömrünə ömrünü qatdı Öndərim.

Dedi ki, ədalət qoy zəfər çalsın,
Halal zəhmətiylə insan ucalsın.
Haqqın toxumları cücərib, artsın,
Nahaqqı çiynindən atdı Öndərim.

Qəlbini Danko tək məşəl eləyib,
Odunda qaranlıq, zülmət əriyib.
Qarabağ işğalı qəddini əyib,
Çox ağrı-acını daddı Öndərim.

Qoyubdu yerində müdrik bir rəhbər,
Baş komandan kimi oldu müzəffər.
Düşmən üzərində çalındı zəfər
Yolun da, arzun da haqdı, Öndərim.

Çox dəyərli idi ömrün hər anı,
Xalqın ürəyiydi sevgi ünvanı.
Elə bağışladı öz həyatını,
Elin ürəyinə qaldı Öndərim.

Lənkəran-2021

Təbiət sevgisi

Təbiətin tarazlığını qorumaq hamımızın şərəfli vəzifəsidir. Bizdən əvvəl qoruyublar, biz də qoruyub əmanət kimi gələcək nəsillərə ötürməliyik. Hər hansı ağacın budağını kəsən elə bilirəm ki, əlimin bir barmağını kəsir.....

Heydər Əliyev

Ürəyi təmizdi bəyaz qar kimi,
Gəldi millətinə xilaskar kimi.
Qaldı nəsillərə yadigar kimi,
Təbiət sevgisi Ulu öndərin.

Dedi kimsə kəssə bircə budağı,
Elə bil əlimdən kəsir barmağı.
Oldu bir millətin yaşıl çırağı,
Təbiət sevgisi Ulu Öndərin.

Bənzərsiz təbiət verilib bizə,
Nankorluq yaraşmır heç birimizə.
Həmişə örnəkdir gənc nəslimizə
Təbiət sevgisi Ulu Öndərin.

Elə ki, dəyişdi öz dünyasını,
Təbiət duyubdu qəlb ağrısını.
Yetirdi ən böyük davamçısını
Təbiət sevgisi Ulu Öndərin.

Xəyanət sayardı ekotalanı,
Qəhrəman bilərdi bir bağsalanı.

Yaşıla bürüdü Azərbaycanı
Təbiət sevgisi Ulu Öndərin.

Bu sevgi gəlibdi özü bu günə,
Üz tutub Qarabağ təbiətinə.
Özü olmasa da yaşayır yenə
Təbiət sevgisi Ulu Öndərin.

Lənkəran-2020

Qalib baş komandan

44 günlük Vətən müharibəsi xalqımızın böyük qələbəsi ilə başa çatdı. Düşmən ağır məğlubiyyətə uğradıldı. 30 illik işğaldan sonra Qarabağ azad edilərək öz əzəli torpağına qovuşdu. Qələbə güclü Azərbaycan Silahlı Qüvvələri ilə xalqımızın görünməmiş həmrəyliyi sayəsində qazanıldı. İndi xalqımızın öz başını uca tutmağa haqqı var. Azərbaycan xalqı daha qalib xalq kimi yaşayacaqdır….

İlham Əliyev.
Azərbaycan Respublikasının Prezidenti,
Silahlı Qüvvələrin Ali Baş Komandanı.

Vətən savaşında oldun müzəffər,
Gəldi gözlənilən tarixi zəfər.
Ey böyük sərkərdə, ey müdrik rəhbər,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Alışıb tez sönən bir közdü düşmən,
Yiyəsiz it kimi quduzdu düşmən.
Masada, döyüşdə uduzdu düşmən,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Bir ordu yaratdın yenilməz, mətin,
Daddıq sevincini qalibiyyətin.
Sildin hər izini məğlubiyyətin,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Sanki qayıtmışdı Babək, Koroğlu,
Şah baba-millətin qəhrəman oğlu.
Yolun ulu Heydər-atanın yolu,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Son qoydun düşmənin iddiasına,
Qarabağla bağlı yer davasına.
"Böyük Ermənistan" boş xülyasına,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Hər zəfər bir xalqın qeyrət nişanı,
Yazıldı əlinlə hünər dastanı.
Tanıtdın bir daha Azərbaycanı,
Qalib bir millətin şərəf-şanısan,
Sən də öz dövrünün qəhrəmanısan.

Lənkəran-2024

Odur tarixlərə zəfər yaşadan

Əhsən bu qürura, əhsən hökmünə.
Necə də bağlıdır insan kökünə
İlahi şükürlər olsun bu günə-
Odur tarixlərə zəfər yaşadan!

Nə cəfalar çəkdi xalqım bu illər,
Heç gülmədi, açılmadı könüllər.
Şanlı tarix yazdı, ordum bu günlər-
Odur tarixlərə zəfər yaşadan!

Tarixə rəng qatdı qurduğu ordu.
Əzmlə düşmənin önündə durdu.
Mənfur düşmənlərə o, qan uddurdu,
Odur tarixlərə zəfər yaşadan!

Eşitdik qələbə sorağımızı,
Nəşəli, sevincli növrağımızı.
Qaldırdı göylərə Bayrağımızı,
Odur tarixlərə zəfər yaşadan!

Azad oldu Cəbrayılım, Fizulim,
İşğala dözmədi Zəngilan elim.
Şəhid sədasına susmadı dilim,
Odur tarixlərə zəfər yaşadan!

Vətənlə bir tutdu müqəddəs qanı,
Aldı Qarabağı, aldı Şuşanı.
Söyləyin dünyada ona tay hanı?! -
Odur tarixlərə zəfər yaşadan!

Lənkəran-2020

Vətən

Ana dedim mən sənə,
Sən də övlad de mənə.
Sığınmışam sinənə,
İsti qucaqsan, Vətən!

Baş əymədin namərdə,
Sən dözmüsən hər dərdə.
Sevgi paylanan yerdə
Yanan çıraqsan,Vətən!

Tarixdə izin qalıb,
Bükülməz dizin qalıb,
Kölgəsiz üzün qalıb,
Sönməz ocaqsan, Vətən!

Nur saçmısan yoluma,
Güc vermisən qoluma.
Baxıram sağ-soluma,
Cənnət torpaqsan, Vətən!

Keçmişin qılınc-qalxan,
Bu günün sülhə ünvan.
Təşnə qəlbə hey axan
Sərin bulaqsan,Vətən!

Doğub bəxtinə səhər,
Çaldın döyüşdə zəfər.
Qayaların bir əsgər,
Keçilməz dağsan, Vətən!

Nurdur gecə-gündüzün,
Heç kimdə yoxdur gözün.
Qarabağ sənin özün,
Sən Qarabağsan, Vətən!

Lənkəran-2025

Qarabağdadır

Başı çox dəymişdi hey daşdan daşa,
Pənah xanın özü köçüb yaddaşa.
Savaşı zəfərlə vursaq da başa,
Ermənin gözü Qarabağdadır.

Bülbülün, Seyidin, Xanın avazı,
O Aşıq Şəmşirin sədəfli sazı.
Üzeyir, Vaqifin sənət dünyası,
Natəvanın sözü Qarabağdadır.

Tanınır dünyada vəhşi xislətlə,
Yalanlar uydurur çirkin niyyətlə.
Erməni barışmır məğlubiyyətlə,
Bol çörək, ruzusu Qarabağdadır.

Çəkir qəm yükünü min şəhid dağın,
Minadan yaralı doğma torpağın.
Bir vaxt söndürülən neçə ocağın,
İndi yanar közü Qarabağdadır.

Daşı, qayası da heyrətə dönüb,
Döyüşdə yenilməz qeyrətə dönüb.
Bu gün başdan başa cənnətə dönüb,
Qaynar həyat izi Qarabağdadır.

Lənkəran – 2025

Şəhidlər

Vətən sevgisinin yox imiş həddi,
Bilindi bu yurdun mərdi, namərdi.
Yükləndi qəlbinə Vətənin dərdi,
Ən çətin sınaqdan keçdi şəhidlər.

Hər bir gəncdə olmaz cəsarət belə,
Vətənçün yaşaya, vətənçün ölə.
Candan çox sevdiyi Vətənə, elə
Sədaqət andını içdi şəhidlər.

Bir ağrı, bir nisgil keçdi ürəkdən,
Keçdilər canından, şirin diləkdən.
Yoluna göz dikən neçə zirvədən
Şəhid zirvəsini seçdi şəhidlər.

Elin göz yaşını silə bildilər,
Dərdini, qəmini bölə bildilər.
Hətta ölümə də gülə bildilər,
Ölümü səcdəyə çəkdi şəhidlər.

Lənkəran-2022

Zəfərdə payın var...

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı Vüsal Kazımov Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində, Lənkəran Dövlət Universitetinin müəllimi, Astara Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru Kamran Kazımovun ailəsində dünyaya göz açıb. Lənkəran şəhər Gənclər və İdman İdarəsinin nəzdində UGİM-nin direktoru vəzifəsində çalışıb. 2020-ci il sentyabrın 27-də erməni işğalı altında olan ərazilərin azad edilməsi uğrunda döyüşlərə qatılıb. Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının, eləcə də Şuşa şəhərinin azad edilməsində iştirak edib. Oktyabr ayının 26-da son dəfə ailəsi ilə əlaqə saxlamış və Şuşanın azad edilməsi ilə əlaqədar aparılan əməliyyat zamanı şəhidlik zirvəsinə ucalıb. Noyabr ayının 29-da doğulub boya-başa çatdığı Yuxarı Nüvədi kəndində dəfn edilib.

Qeyrət babaların əmanətidir,
Qılıncdan doğulan rəşadətidir.
Vətənin azadlıq sücaətidir,
Sənin sağlam kökün, soyun var, Vüsal,
Zəfər sevincində payın var, Vüsal.

Qulaqda Xocalı harayı ilə,
Girdin döyüşlərə azğın düşmənlə.
Bu gün qürur duyur Vətən sənlə,
Zirvədə olmusan bərqərar, Vüsal,
Zəfər sevincində payın var, Vüsal.

Sənsən könüllərin ən xoş duyğusu,
Udduğumuz hava, içdiyimiz su
Döyüşdə çin olan zəfər arzusu.
Sanma ki, el səni unudar, Vüsal,
Zəfər sevincində payın var, Vüsal.

Bu gün oğlum deyir Qarabağ sənə,
Qanından su içən bu torpaq sənə,
Baş əyir hər ağac, hər yarpaq sənə,
Qayıdır yurduna qaçqınlar, Vüsal,
Zəfər sevincində payın var, Vüsal.

Sevdin Vətən adlı bir qibləgahı,
Qovuşduğun yersə Tanrı dərgahı.
Məzarın bir elin ziyarətgahı,
Gündüz Günəş, gecə Ayın var, Vüsal,
Zəfər sevincində payın var, Vüsal.

Lənkəran - 2022

Erməni yalanı

Qarabağ dəyişir hey ildən ilə,
Düşmənin izindən əsər qalmayır.
Daha yalanları yetmir mənzilə,
Doğru sözündə də kəsər qalmayır.

Qalıb Qarabağsız o yana-yana,
Hər yoldan ötəndən kömək istəyir.
İnamı qalmayıb firəng, yunana ,
İndi Hindistandan dəstək istəyir.

Döyüş cəbhəsində üzü yox onun,
Tutub böyüklərin düz ətəyindən.
Amma ki, hiyləsi, məkri çox onun,
Göz çəkmir özgənin bal pətəyindən.

Doldurub dünyanı yalanlar ilə,
Heyif yalanlara inanan oldu.
Sovet rəhbərinin öz əmri ilə
Bakı öz qanına bil, qəltan oldu.

Yalanlar keçibdi Xocalıda da,
Sovet polku qırğın törədib burda.
Qətlə yetirilib qoca... uşaq da,
Soyqırım yaşadıb bu doğma yurda.

Elə hey düşünüb, daşınıb onlar
Özgə bostanına daş atmaq üçün.
Həmsədrləri də tapdı yalanlar,
İşğalın ömrünü uzatmaq üçün.

Yalanlar dirənib artıq divara,
Aşıb keçə bilmir səddi o yana.
Əli üzülübdü, qalıb avara,
Baxır həsəd ilə Azərbaycana!

Lənkəran-2025

Ana Vətən

Sığınmışam qucağına,
Qızınmışam ocağına.
Sənin yeni növrağına
Vurulmuşam, ana Vətən!

Vüqarlandım şiş dağınla,
Ətirləndim gül bağınla.
Suyu duru bulağınla
Durulmuşam, ana Vətən!

Qisas aldın sən düşməndən,
Yolun keçdi şəhidlikdən.
Zəfərinlə yenidən mən
Doğulmuşam, ana Vətən!

Rahatlandım yay-qışında,
Təbiətin ağuşunda.
Dağa qalxan yoxuşunda
Yorulmuşam, ana Vətən!

Düşdün zəfər sorağına,
Qovuşdun Qarabağına.
Səcdə qılıb torpağına
Baş qoymuşam, ana Vətən!

Lənkəran-2021

General varisi

Hələ Sovet məkanında Azərbaycanın öz dəst-xətti ilə seçilən görkəmli sərkərdələrindən biri də general-mayor Zadir Rzayev idi. Lənkəran rayonunun Şürük kəndində anadan olan Z.Rzayev hələ uşaq ikən həmyerlisi İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunlarının qvardiya general-mayoru Həzi Aslanov kimi hərbi sərkərdə olmağı qərara almışdı. 1962-ci ildə Bakı Ali Ümumqoşun Komandirləri məktəbini, 1975-ci ildə isə M.F.Frunze adına Moskva Hərbi Akademiyasını bitirərək Zaqafqaziya Hərbi dairəsində alay komandirinin müavini, tabor qərargahının rəisi, tabor komandiri vəzifələrində çalışıb. Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra Milli Ordu quruculuğuna qatılan polkovnik-leytenant əsgər və zabitlərdən ibarət ilk hərbi birləşmə yaratdı. Həmin briqada təcrübəli komandirin uğurlu hərbi əməliyyatı nəticəsində Ağdərənin 20, Laçının isə 40 kəndini düşməndən azad etdi.

1992-ci il oktyabr ayının 19-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Zadir Rzayevə general-mayor hərbi rütbəsi verildi.

1993-cü ilin iyun ayının 16-da Respublika Müdafiə nazirliyində cəbhə qərargahı yaradıldı.General –mayor Zadir Rzayev Müdafiə nazirinin müavini və cəbhə komandanı təyin edildi.

Ümummilli lider Heydər Əliyev bir sərkərdə kimi Zadir Rzayevin Vətən qarşısında xidmətlərinə yüksək qiymət verərək demişdir: "General Rzayev mükəmməl hərbi biliyə və təcrübəyə malik istedadlı sərkərdə olmaqla bərabər həm də alovlu vətənpərvər və ləyaqətli vətəndaşdır..."

General Zadir Rzayev əfsanəvi sərkərdə Həzi Aslanovun şanlı döyüş ənənlərinə axıra qədər sadiq qaldı.

Sevirdi Həzini hələ uşaqkən,
Sanmayın bu sevgi bir xəyal oldu.
Böyük generala hədsiz sevgidən
Özü də böyüyüb general oldu.

Hərbiyə bağladı öz həyatını.
Vətənə tükənməz sevgisi kimi.
Ulu öndər verdi mükafatını,
Ulu sərkərdənin varisi kimi.

Böyük generallar ailəsinə
O da üzv kimi yazdı adını.
Səs verdi Vətənin cəngi səsinə,
Göstərdi sərkərdə istedadını.

Həzi doğulsa da hərb əfsanəsi,
Fəqət varisiylə, həmyerlidirlər.
Arada olsa da, vaxt məsafəsi,
Yatdığı torpağda birləşibdilər.

Böyüyüb Lənkəran sevgisi ilə,
Sədaqət andını içibdi onlar
Yaşayıb, döyüşüb qeyrət hissiylə
Vətənçün canından keçibdi onlar.

İndi nə Həzi var, nədə ki Zadir,
Fəqət ki, onların ruhları şaddır.
Doğma Azərbaycan güclü dövlətdir.
Qarabağ işğaldan tamam azaddır.

Hərbiyə bağladı öz həyatını,
Vətənə tükənməz sevgisi kimi.
Ulu Öndər verdi mükafatını,
Ulu sərkərdənin varisi kimi.

Lənkəran-2020

Qarabağ Şahini

Bayram Muxtarovun ad günü münasibətilə.

Sən nələr yaşadın, sən nələr gördün,
Qarabağ üstündən sən uçan zaman.
Ağrı-acısını daşıyıb yurdun,
Bir övladı oldun igid, qəhraman.

Gördün nəşlərini şəhidlərin də,
Dəlmə deşik olub süngüləriylə.
Körpə uşaqların bədənlərində,
Yaralar açıblar güllələriylə.

Parça-parça olan əzalarını,
Qoymadın ki, qala yad tapdağında.
Gizlədib öz ürək ağrılarını,
Dözdün hər şəhidin həsrət dağına.

Qorxub çəkinmədin odlu güllədən,
Neçə-neçə şəhid yetdi mənzilə.
Hər dəfə borcunu ödəyəndə sən,
Tökdün göz yaşını sən gilə-gilə

Ziyarətgah olsun şəhid məzarı,
İstədin hər şəhid Vətəndə ola.
Nigaran qalmasın qoy anaları,
Ya da yara üstdən yara vurula.

Uçdun Qarabağın səması üstdən,
Güllə yağışına düşsən də belə.
Aldın qisasını azğın düşməndən,
Daim qanad açdın yurd sevgisiylə.

Bu gün ad günündür, igid qəhraman,
Hər vaxt sevinməyə haqqın var sənin.
Gənclərə örnəksən bil ki, hər zaman,
Sənə oğlum deyən xalqın var sənin.

Lənkəran 2023

Şəhid ömrü

Orxan Quluzadə Lənkəran şəhərində anadan olub. 44 günlük müharibənin ilk günlərindən döyüşlərə qatılıb. Son döyüş yeri Zəngilanın Şükürağac yüksəkliyi olub. Böyük qələbənin sevincini yaşamağa cəmi 7 saat qalmış şəhadətə qovuşub.

Səs verdin Vətənin çağırışına,
İlkin döyüşlərə qatılıb getdin.
Düşsən də düşmənin od yağışına,
Səngərdən səngərə atılıb getdin.

Ölümdən qorxmadın son nəfəsədək,
Sən sadiq qalmısan hərbi andına.
Vətəni sənin tək sevəsən gərək,
Şəhidlik məqamı düşdü adına.

Qarabağ vətəndir, Vətən Qarabağ,
İndi öz qoynuna alıbdı səni.
Qanla suvardığın bu doğma torpaq,
Şəhid tək qəlbinə salıbdı səni.

Ömrü bitirsən də bu gənc yaşında,
Zirvədə tutmusan qərar, şəhidim.
İzin itə bilməz haqq savaşında,
Keçsə də neçə qış, bahar, şəhidim.

Layiq görüldüyün neçə təltifdən,
Birini yaxana taxa bilmədin.
Onlarla düşməni öldürsən də sən,
Ölüm meydanından çıxa bilmədin.

Şükürağac –döyüş meydanın durur,
Bu mövqe bir hünər dastanın oldu.
Üzündə əzəmət, üzündə qürur,
Zəngilan son döyüş meydanın oldu.

Saatlar qalmışdı böyük zəfərə,
Düşündün, məqsədə çatırsan indi.
...Yoxsa ki, qayıtdın ötən illərə,
Torpaq beşiyində yatırsan indi.

Lənkəran-2024

Çəliklə gəzən qazi

Sən ki, yaşıdlara örnək göstərdin,
Yatmış qeyrətləri oyatdın, oğul.
Cəbhəyə gedəndə adi əsgərdin
Böyük qələbəylə qayıtdın, oğul.

Bilirəm, yaralar incidir səni,
Görürəm çəliklə sıxılmağını.
Tuş etdin gülləyə polad sinəsi,
Cəbhədə qoymusan sağlamlığını.

Ana sevgisindən düşdün uzağa,
Gecələr səngərlər yatağın oldu.
Dedin ki, Vətənə canım sadağa,
Qürurun o azad torpağın oldu.

Sən ki, qorxmamısan ölümdən, qandan,
Qisas almağından doyub gəlmisən.
Qəddin seçilmirdi uca çinardan,
Qəddini döyüşdə qoyub gəlmisən.

Güllədən aldığın ağır yaralar,
Gülüşü üzündən qaçaq salıbdır.
Vətənin fəxridir böyük oğullar,
Vətən bax, onlarla zəfər çalıbdır.

Məclisdə, tədbirdə susursan nədən?
Deməyə daha çox sözün var sənin.
Qarabağ azaddır, bilmək istəsən,
Orada əbədi izin var sənin.

Tez-tez qapılırsan öz aləminə,
Güllələrmi alır səni özündən?!
Şəhid yoldaşları anırsan yenə,
Ölüm səhnələri keçir gözündən.

Parlayır döşündə orden-medallar,
Arxasında hünər, şücaət durur.
Səndən uzaq olub şəxsi maraqlar,
Vətənə, elinə məhəbbət durur.

Başını uca, tut Vətən övladı,
Qürurundan enmək sənə yaraşmır.
Sən ki, məhv etmisən düşməni, yadı,
Qamətini əymək sənə yaraşmır.

Şəhid qardaşım

LDU-nun məzunu
Cəfərov Cəsarət Xaliq oğlunun xatirəsinə
(bacısının dilindən)

Sən oldun qəddimi bükən,
Gözümdən qanlı-yaş tökən.
Saşlarıma daraq çəkən
Əsən küləksən qardaşım!

Fəxr edirik ad-sanınla,
Qəhrəmanlıq dastanınla.
Qürurunla, vüqarınla
Bəlkə də təksən, qardaşım!

Səndən qabaq Zəfər gəldi,
Bir işıqlı səhər gəldi.
Sən gəlməmiş kədər gəldi,
Bildik Şəhidsən qardaşım!

"Bacı" deyən dilin hanı,
Daim açıq əlin hanı?
Evin boşdur, gəlin hanı?-
Xəyal, diləksən, qardaşım!

Daş qoymadın daşım üstdə,
Qürur gəldi yaşın üstdə.
Həsrətinlə başım üstdə
Çaxan şimşəksən, qardaşım!

Qulaqda ata öyüdün,
Əlimdən tutub böyüdün.
Halal olsun ana südün,
Çarpan ürəksən, qardaşım,
Daim gerçəksən, qardaşım.

Lənkəran-2021

Masallı şəhidin var

LDU-nun məzunu
Ülvi Arif oğlu Nüsrətbəylinin xatirəsinə

Vətən eşqi dilində,
Ona çatmır əlin də.
Yatır qəm mənzilində,
Masallı, şəhidin var.

Dondurub yaz-qışını,
Toy-düyün alqışını.
Qucaqla başdaşını,
Masallı, şəhidin var.

Vətən sağ olsun deyə,
Yollanıbdı cəbhəyə.
Şəhid dönüb geriyə,
Masallı, şəhidin var.

Yaşıdlar -hər tində,
Gizlənibdi çətində.
Güllütəpə kəndində,
Masallı, şəhidin var.

Sevgidən kam almayıb,
Qeyrətindən qalmayıb,
Bu həyatdan doymayıb,
Masallı, şəhidin var.

Yolu savaşdan keçib,
Keçilməz dağdan keçib.
Vətənçün candan keçib,
Masallı, şəhidin var.

Lənkəran-2022

Adnalı kəndində bir şəhid yatır

LDU-nun məzunu Elvin Elçin oğlu Bayramovun xatirəsinə

Neçə şəhid verən Cəlilabadın
Adnalı kəndində bir şəhid yatır.
Çəkir diqqətini doğmanın, yadın,
Adnalı kəndində bir şəhid yatır.

Vətən şirin idi ona bal kimi,
Zirvəni seçibdi bir qartal kimi.
Keçdi yaddaşlara bir xəyal kimi,
Adnalı kəndində bir şəhid yatır.

Əl çəkdi bir yolluq qocalığından,
Baxır şəhidliyin ucalığından.
İgid tək iz qoydu cavanlığından
Adnalı kəndində bir şəhid yatır.

Qeyrəti, vicdanı çəkərək önə,
Övladlıq borcunu verdi Vətənə.
İndi ellər gəlib ziyarətinə,
Adnalı kəndində bir şəhid yatır.

Lənkəran-2023

Son döyüş yeri

LDU-nun məzunu
Cahangirov Rauf Xəyyam oğlunun xatirəsinə

Vətənə qürürdur igid oğullar,
Ucaldır hər yerdə yurdun başını.
Hər qarış torpağa baş qoyub onlar,
Axtarsaq tarixin qan yaddaşını.

Ürəyin hökmüylə, qəlbin səsiylə,
Könüllü qatıldın sən döyüşlərə.
Qəlbində alışan qisas hissiylə,
Döndün bir yenilməz igid əsgərə.

Keçdin Fizulidən, Cəbrayıldan....sən,
Cənnət Qarabağın duydun ətrini.
Sarsıldı önündə, qorxdu zəhmindən,
Göstərdin düşmənə məzar yerini.

İlk dəfə gördüyün Xarı bülbülə
Sevgiylə alışdı sinəndə ürək.
Dedin bu çiçəyin xoş ətri ilə
Astara Şuşaya qovuşsun gərək.

"Şuşaya hücuma" verilən əmri
Necə də sevinclə qarşıladın sən.
Sənə qucaq açdı son görüş yeri,
Ömrünü Şuşaya bağışladın sən.

Lənkəran-2021

Dağların vüqarlı oğlu
LDU-nun məzunu
Cavanşir Namiq oğlu Həmidlinin xatirəsinə

Qoynunda bəslədi bu dağlar səni,
Qoluna güc verdi, qəddinə vüqar.
Dedi, müqəddəs bil ana vətəni,
Çətində olasan ona xilaskar.

Qulaqda dağların xeyir-duası,
Getdin döyüşlərə bir əsgər kimi.
Başlayanda ölüm-dirim davası,
Dağlar da olubdu səfərbər kimi.

Sənə güc verdi ki, azğın düşmənə
Döyüşdə heç zaman yenilməyəsən.
Sənə vüqar verdi, düşsən çətinə,
Özünü sındırıb əyilməyəsən.

Sənə qeyrət verdi öz övladı tək,
Ölüm qorxutmasın, olsan da darda.
Sənə ürək verdi, geniş bir ürək,
Vətən varlığıyla yerləşsin orda.

Zəfər sevincini yaşamasan da,
Talış dağlarına yaşada bildin.
Şəhid tək zirvədə qərar tutsan da,
Yenidən qoynuna qayıda bildin.

Lənkəran-2022

Zirvədən baxırsan
LDU-nun məzunu Cavad Hüseynlinin xatirəsinə

Sumqayıt Şəhidlər Xiyabanında
Lerikin daha bir igidi yatır.
Ürəyi dayanıb yurd savaşında,
Burada bir vətən şəhidi yatır.

Keçsə də Vətənçün şirin canından,
Lerik dağlarından salamı gələr.
Keçir ağır-ağır hamı yanından,
Yoxsa yuxusundan oyana bilər.

İgidlər ölməyir, şəhid ömrü tək
Əbədi bir ömür qazanır onlar.
Bəlkə nəfəsidir hər əsən külək,
Ya da işıq olub hey yanır onlar.

Bəlkə də dönərək dağ qartalına,
Zirvədən boylanıb izləyir bizi.
Gedir öz xalqının istiqlalına,
Öndə qərar tutub gözləyir bizi.

Cəsur cavanlara yaraşmır ölmək,
Ömrü şəhidliklə naxışlanıbdı,
Vətən yaşayırsa, yaşayır demək,
Ömrünü vətənə bağışlayıbdı.

Lənkəran-2020

Vətən çağırdı səni
LDU-nun məzunu
Tural Rauf oğlu Həsənovun xatirəsinə

Vətən çağırdı səni,
Yollandın döyüşlərə.
Göstərdin hünərini,
Cığır açdın Zəfərə.

Kökün, soyun bu torpaq-
Əcdadın son mənzili.
Səni yaşadır bu xalq,
Olsa da qəm nisgili.

Vətən çağırdı səni
Yurda sahib olmağa.
Qovub azğın düşməni,
Ondan qisas almağa.

Vətən çağırdı səni
Laçına həyan kimi.
Otuz illik dərdini
Övlad tək duyan kimi.

Vətən çağırdı səni,
Gözü yolunda idi.
Gözlədi qələbəni,
Gücü qolunda idi.

Lənkəran-2021

Dərs deyirdi gələcəyə
LDU-nun məzunu
Tural Arif oğlu Rəhimovun xatirəsinə

Dərs deyirdi gələcəyə
Doğma yurda sədaqətdən.
Dərs deyəndə gələcəyə
El-obaya məhəbbətdən.

O, apardı özü ilə
Şagirdlərin sevgisini.
Yadda qaldı sözü ilə,
Seçdi şəhid zirvəsini.

Gəlib çatdı övlad kimi
Qarabağın harayına.
Ömründən kərpic qoparıb
Hördü ömür sarayına.

Əldə silah dağlar aşıb
İgidlikdən keçdi ömrü.
Bu torpaqla qucaqlaşıb
Şəhidlikdən keçdi ömrü.

Şagirdlərlə bölüşməyə
Çox arzusu, sözü qaldı.
Dərs dediyi məktəbində
Əbədi bir izi qaldı.
Lənkəran-2022

Kaş görəydin bu zəfəri

LDU-nun məzunu
Əsgərov Fərid Ərəstun oğlunun xatirəsinə

Səs verdin yurdun səsinə,
Nəfəs qatdın nəfəsinə.
Qalxdın şəhid zirvəsinə
Kaş görəydin bu zəfəri.

Əyilmədin ölümə də,
Səhəri açdın səngərdə.
Qalib gəldin döyüşlərdə,
Kaş görəydin bu zəfəri.

Oldun yurdun bir əsgəri,
Qazanmaqçun son zəfəri.
Sən ey döyüş səfərbəri,
Kaş görəydin bu zəfəri.

Keçir sənsiz qış da, yay da.
Axır bulaq, coşur çay da,
Doğur Günəş, çıxır Ay da,
Kaş görəydin bu zəfəri.

Zəfəri görmək haqqındı,
Səni sevən öz xalqındı.
Ürəkdə şəhid dağındı,
Kaş görəydin bu zəfəri.

Lənkəran-202

Bir kimsəyə qalmır dünya

Baxmır qocadır, ya cavan,
Vaxtlı-vaxtsız gedir insan.
Özüdür sonraya qalan,
Bir kimsəyə qalmır dünya,

Qismətinlə barış barı,
Ölüm döyür qapıları.
Sındırır lap şah vüqarı,
Bir kimsəyə qalmır dünya.

Aç qəlbini məhəbbətə,
Ədalətə, mərhəmətə.
Çox güvənmə var-dövlətə,
Bir kimsəyə qalmır dünya.

Sevmir onu sevməyəni,
Təkəbbürü, öyünəni.
Gözə soxma vəzifəni,
Bir kimsəyə qalmır dünya.

Vəfası da bizə bəlli,
İstəsən tut ikiəlli.
Göstərəcək son mənzili,
Bir kimsəyə qalmır dünya.

Lənkəran-2002

Cənub mirvarisi

Hələ Sovet məkanında qarşılıqlı olaraq ildə bir dəfə Rusiyada Azərbaycan, Azərbaycanda isə Rus ədəbiyyatı günləri keçirilərdi. Növbəti ədəbi tədbirdə iştirak etmək üçün rus şairi Nikolay Tixonov da Azərbaycana gəlmişdi. Lənkəranda olarkən subtropiklər diyarının bənzərsiz, ecazkar təbiəti şairi daha çox özünə məftun etmişdi. Təəssüratlarını "Azərbaycan dəftəri adlı" silsilə şerlərində oxucuları ilə bölüşən şair Lənkəranı " Cənub mirvarisi " adlandırmışdı.....

Dağdan əsən sərin küləyin ilə,
Qonağa verdiyin çörəyin ilə,
Süfrən kimi açıq ürəyin ilə,
Dillərə düşmüsən özün, Lənkəran.

İgid ərənlərin ad-sanı burda,
Torpağa tökülən al qanı burda.
Neçə savaşların meydanı burda,
Fəqət bükülməyib dizin, Lənkəran.

Meşə nağılını dinləyib gerçək,
Məxmər çəmənində uyuyan gərək.
Adın var, bir Cənub mirvarisi tək,
Qışın da olubdu yazın, Lənkəran.

Gələnə sevgin var, məhəbbətlisən,
Ab-havan dərmandır, şəfahətlisən.

Sən ki, bol rüzulu, bol sərvətlisən,
Cənnətə açılıb gözün Lənkəran.

Xanın sarayıyla durun üz-üzə,
Ulu tarixindən dərs versin sizə.
Qalıb babalardan əmanət bizə,
Həmişə ağ olub üzün, Lənkəran.

Təbiətdən gəlib bu möcüzələr,
Qoymur boğazına dil, şəlalələr,
Xəzər gecə-gündüz ötür nəğmələr,
Xəzərdir sədəfli sazın, Lənkəran.

Qeyrətin boylanır yoxsa torpaqdan?
Şəhid verib zəfər aldın hər zaman.
Həzi yollanıbdı döyüşə burdan,
Vardır qəhrəmanlıq izin, Lənkəran.

Lənkəran-2021

Lənkəranım

Gözəl diyar Ana yurdum nə gözəlsən?!
Sən hər şeydən, hər sevgidən ilk əzəlsən.
Şairlərin dilindəki bir qəzəlsən,
Sənə qurban, fəda olsun mənim canım,
Hər bucağı Cənnət olan Lənkəranım!

Çox qədimdir sənin yaşın ana torpaq,
Keşiyində hər an oyaq, mərd dayanaq.
Yansın daim qucağında xöşbəxt çıraq,
Sənə qurban, fəda olsun mənim canım,
Hər bucağı Cənnət olan Lənkəranım!

Xan evisən, bir saraysan cəhcəlallı,
Gözəlliyin bir gerçəkdir xoş xəyallı,
Qədəmlərin uğurludur at sayalı.
Sənə qurban, fəda olsun mənim canım,
Hər bucağı Cənnət olan Lənkəranım!

Ər Həzilər yetişdirən oylağımsan,
Sən alimlər, ziyalılar diyarımsan.
Sən əyilməz qürurumsan, vüqarımsan,
Sənə qurban, fəda olsun mənim canım,
Hər bucağı Cənnət olan Lənkəranım!

Mədəniyyət ocağısan, dilin şirin,
Ürəyimdə ilkin öndə hər an yerin,
Göz dağıdır düşməninə sərvətlərin,
Sənə qurban, fəda olsun mənim canım,
Hər bucağı Cənnət olan Lənkəranım!

Əsrlərin yaddaşından gəlir səsin,
Xəstələrə məlhəm olur gül nəfəsin,
Qoy kükrəsin ruhundakı xoş həvəsin
Sənə qurban, fəda olsun mənim canım,
Hər bucağı Cənnət olan Lənkəranım!

Lənkəran - 2004

Xan sarayı

Başı üstdən keçib illər,
Daraq çəkib ona yellər,
Ziyarətə gəlir ellər,
Sükut udur hay-harayı,
Xan sarayı.

Xan özü yox, izi burda,
Daşa dönən sözü burda.
Bizi görən gözü burda,
Çətir tutub bulud layı...
Xan sarayı.

Gündüz Günəş, gecələr Ay,
Verir ona işıqdan pay.
Xan yoxdursa, durur Saray,
Üstündə var haqqı-sayı,
Xan sarayı.

Burdan verilib hər qərar,
Ədalət olub bərqərar.
Tarixindən sirlər açar,
Keçib neçə qışı....yayı,
Xan sarayı.

Lənkəran-1990

Xəzər

Gah sakit olursan, gah da qəzəbli,
Bilirəm, ürəyin arzu-mətləbli,
Niyə narahatsan, niyə əsəbli?
Gəl aç ürəyini mənə, Xəzərim

Adətən dost ilə dil tapır insan,
Sevgili gənclərə olmusan ünvan.
Sənlə həmişə həmsöhbət olan
Sənə üz tutubdur yenə, Xəzərim.

Hamıya mehriban anasan, indi
Hər şeyi əks edən aynasan, indi.
Özün də bir mavi dünyasan, indi,
Borcluyuq övlad tək sənə, Xəzərim.

Gəlirik sahilə ürək açmağa,
Üz tutub kədərdən, qəmdən qaçmağa.
Kövrək laylayına qulaq asmağa-
Dalğalar dil açıb dinə, Xəzərim.

Hamıya sərvətin bol ola-ola,
Salmasınlar səni kaş haldan-hala.
Nankorluq görəndə sənə, az qala,
Bu həyat gözümdə sönə, Xəzərim.

Lənkəran-2015

Səpnəkəranda

Gözlərim dünyaya burda açılıb,
Həyat yollarıma işıq saçılıb.
Ürəyim bir ana sevgisi alıb,
Anamın laylası Səpnəkəranda.

Bu kənddə izi var qanlı döyüşün,
Bizə zəfər verən şanlı döyüşün.
Qarabağda bitən qanlı döyüşün
Qələbə sədası Səpnəkəranda.

Bura ünvanıdır halal zəhmətin,
O haqq-ədalətin, saf məhəbbətin.
Babalardan qalan hər əmanətin
Çin olmuş röyası Səpnəkəranda.

Dərmanı burdadır, bil şəfahətin,
Yaşıllıq rəmzidir hər səadətin.
Dil açıb danışan gül təbiətin
Hər zövqü-səfası Səpnəkəranda.

Açılıb gülləri ömür yazının,
Sehrinə düşürük toy avazının.
Gözəllik timsalı Talış qızının
Əhdinə vəfası Səpnəkəranda.

Parçası olsa da Xan Lənkəranın,
Qaçmayıb ardınca şərəfin, şanın.
Yurddan uzaq düşən neçə insanın
Uşaqlıq dünyası Səpnəkəranda.

Yaxın bir tarixin sirridir bu kənd,
İgidlər məskəni, yeridir bu kənd.
O abad kəndlərdən biridir bu kənd,
Yaşamaq sevdası Səpnəkəranda.

Lənkəran-2023

Ömür də bir borcdur.

Hər kəsin xoş keçən günü, ayı var,
Fəqət çalışırıq çox vaxt var üçün.
Hamıya verilən ömür payı var,
Ömür də bir borcdur insanlar üçün.

Gün gələr, qəddini əyəcək hər dağ,
Həyat axarıyla ötüb gedəcək.
Həm də solacaqdır hər bağça, hər bağ,
Bizi də nəsillər əvəz edəcək.

Bəlkə də bu yolu vurmadıq başa,
Hardasa bitəcək ömürlərimiz.
Biz də köçəcəyik bir gün yaddaşa,
Qalacaq həyatda əməllərimiz.

Biz ki, bu həyatdan ayrılacağıq,
Yaxşı, pis əməldə izimiz qalar.
Bir ömür borcunu qaytaracağıq,
Fəqət bu dünyada qəlbimiz qalar.

Ata ocağı

Anam Əminənin gəlməyir səsi,
Donubdur atamın isti nəfəsi.
Yenə hər övlada vardır müjdəsi,
Odu azalsa da yanır çırağı,
Əbədi ünvandı ata ocağı.

Nə qədər bu yerdən uzaq olsaq da,
Bizi bağlayıbdı bu doğma yurda.
İnsan nəsil-nəsil dəyişir burda,
Vətən parçasıdır isti qucağı,
Əbədi ünvandı ata ocağı.

İstər ya qız olsun,istər yada ki, oğlan,
Burdan pərvazlayıb hey zaman, zaman.
Kimsə bu ocağı unutmur bir an,
Bu günə keçmişdən gəlir sorağı,
Əbədi ünvandı ata ocağı.

Ocaq yaratsaq da indi hərəmiz,
Yenə də bax ora tələsirik biz.
Axı, ordan gəlir kök-təməlimiz,
Bizə miras verib o halallığı,
Əbədi ünvandı ata ocağı.

İlkin bu dünyaya baxan gözümüz,
Burdan qaynaqlanıb doğru sözümüz.
Kölgəli deyildir, ağdır üzümüz,
Qüruru oradan almışıq, axı
Əbədi ünvandı ata ocağı.

Hamını birliyə çağırandı o,
Sevgini bərabər paylayandı o.
Yaşayıb, həmişə yaşayandı o,
Ruzi-bərəkətin odur qaynağı,
Əbədi ünvandı ata ocağı.

Qatıb yoxsa şəkər bal dilimizə,
Halal nemət verib o əlimizə.
Dözüm bəxş eləyib ürəyimizə,
Keçib bu həyatda hər cür sınağı,
Əbədi ünvandı ata ocağı...

Lənkəran-2024

Kitab

O. söz körpüsüdür hər bir zamanın,
Zəngin mənəviyyat, sərvətdir kitab.
Bir ordu gücünü ortaya qoyan
Təfəkkürdən gələn qüdrətdir kitab.

Dahi Nizaminin hikmət ünvanı,
Ustad Fizulinin "Şəbi-hicranı".
Nəsiminin sözə sığmaz cahanı,
Deməyin quruca söhbətdir kitab.

Sədaqət rəmzidir düz ilqar üçün,
Vətən sevgisidir Bəxtiyar üçün.
Şair Məmmədhüseyn Şəhriyar üçün,
Ayrılıqdan doğan həsrətdir kitab.

O, bir günəşdir ki, daim nur saçır,
Zülməti əridir, qaranlıq qaçır…
Bəzən açılmayan qapılar açır,
Elmdir, bilikdir, hikmətdir kitab.

Elə bir qüvvədir, təklənə bilmir,
Elə bir işıqdır, tükənə bilmir.
Elə xəzinədir, xərclənə bilmir.
Cahanı mat qoyan heyrətdir kitab.

İnsan

Danılmaz haqqıyla, ədalətiylə,
Təmiz sevgisiylə, məhəbbətiylə,
Əyilməz qüruru, dəyanətiylə
Varlığın əşrəfi sayılır insan.

Olur ki, yad üçün çırağa dönür,
Doğmasına qarşı yarağa dönür.
Ən çətin günündə yumağa dönür,
Ən xöşbəxt günündən güc alır insan.

Yaşayır bir ömrü o ildən ilə,
Çox vaxt tamahına olur bir kölə.
Ömür günlərini verərək yelə,
Bir də son nəfəsdə ayılır insan.

Lənkəran-2010

Həkim

Tanınmış həkim-ginekoloq, analar anası,
saysız-hesabsız xəstələri həyata qaytaran
Raisə xanıma ithaf edirəm.

Peşənə bağlandın sən ki, ilk gündən,
Aldın öz payını bol-bol gülüşdən.
Keçsə də ağrısı sənin qəlbindən,
Xəstələr olubdu sirdaşın, həkim.

Olub ki, yuxuna haram qatmısan,
Ya da səksəkədə hərdən yatmısan.
Fəqət neçə ömrə ömür qatmısan,
Ağrıyla yüklənib yaddaşın, həkim!

Müqəddəs andındır Hippokrat andı,
Ayaq dəyən yerdə bir işıq yandı .
Elə ki, bir ürək vurğudan qaldı,
Tökülüb sinənə göz yaşın, həkim!

Harda şəfa vardır, orda başdasan,
Xeyirxah insan tək sən yaddaşdasan.
Gecəli-gündüzlü çağırışdasan,
Belə ötüb keçir yaz-qışın, həkim!

Kimin ki, ağrıyır, üzülür canı,
Yalnız sənə çatır ümid, gümanı.
Döndərib yarağa iynə-dərmanı,
Həyat uğrundadır savaşın, həkim!

Lənkəran-2017

Ata

Atam Qadir müəllim 1943-cü il dekabr ayının 3-də Lənkəran rayonunun Səpnəkəran kəndində anadan olub.
Kəndimizin ilk ali təhsilli ziyalılarındandır. M.F.Axundov Azərbaycan Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini bitirərək Şürük kənd orta məktəbində ixtisası üzrə müəllim işləyib. Ömrünün 50 ildən çoxunu gənc nəslin təlim-tərbiyəsinə həsr edən atam 72 yaşında ürək tutması ilə dünyasını dəyişdi. Saysız-hesabsız şagirdləri var. Onların xoş sorağı təkcə respublikadan deyil, bir çox xarici ölkələrdən gəlir. Şagirdlər onlara övladları kimi qayğıkeş münasibət bəsləyən sevimli müəllimlərini unutmurlar...
Anadan olmasının 80 illik yubileyini onsuz qeyd etdik. Yubiley münasibətilə atam Qadir müəllimə həsr etdiyim aşağıdakı şeirdə kövrək hislərimi oxucularımla bölüşmək istəyirəm.

Şagird sevgisiylə döyünüb qəlbi,
Müəllim nüfuzunu qorumaq üçün.
Özünə bir ünvan bilib məktəbi,
Vətən sevgisini paylamaq üçün.

Qulağında daim şagirdin səsi...
Yaxşı şagirdiylə ucalıb atam.
Olmayıb üzündə bir qəm kölgəsi,
Şərəfli işindən güc alıb atam.

İllər ötüşsə də qaralı-ağlı,
Saf, təmiz vətəndaş yetiribdi o.
Bilib hər şagirdi doğma övladı,
Ömründən ömrünə, pay veribdi o.

Sonadək sinifdə sanıb özünü,
Elə hey göz dikib məktəb yoluna.
Sevimli müəllim tək deyib sözünü,
Fəxr edib baxanda sağı-soluna.

O qollu-budaqlı bir ağac idi,
Şagirdlər ətirli meyvəsi olub.
Fəqət başımıza o, bir tac idi,
Babaya ən şirin nəvəsi olub.

Atalı illərim qalıb arxada,
İndi bu zaman da o zaman deil.
Veribdi ömrünü hər bir övlada,
Yatdığı torpaqda nigaran deyil.

Səpnəkəran-2017

Ay ana

Həyatı vaxtsız tərk edən anam
Əminənin əziz xatirəsinə
Baxıram həsrətlə indi keçmişə,
Övladçün qəlbini verdin hər işə.
Özünü unutdun, çəkdin həmişə
Övlad sevgisini önə, ay ana.

İnciməzdin acı sözümdən mənim,
Elə hey öpərdin üzümdən mənim.
Yuxum da qaçıbdı gözümdən mənim,
Başıma düşmüsən yenə, ay ana.

Analı günlərim ömrümə yazdı
Laylayın bir kövrək kamandı, sazdı.
Mən bütün ömrümü versəm də azdı,
Ömürdən verdiyin günə, ay ana.

Sənsiz başım dəyib hey daşdan-daşa,
Uşağam, önündə çatsam yüz yaşa.
Baxma gözlərimdən axan göz yaşa,
Həmişə borcluyuq sənə, ay ana.

Övlada bir ömür qalıbdı səndən,
Bəs sənə nə qaldı övlad-nəvəndən?!
Çoxdan laylayına darıxmışam mən,
Yenə bir laylay çal mənə, ay ana.

Arxanda qoyduğun illərə baxdım,
Güldanda soluxmuş güllərə baxdım.

Səndən qalan kövrək izlərə baxdım,
Sarsıldım, kaş illər dönə ay ana..

Bitməz, səndən olsa sözüm, söhbətim,
Bağışla, zərrəcə var qəbahətim.
Kaş çata biləydi gücüm, qüdrətim,
Qoymazdım həyatın sönə, ay ana.

Lənkəran-2021

Ana sevgisi

Balası qayğısız böyüsün deyə,
Razıdır hər zülmə boyun əyməyə.
Gərib sinəsini əsən küləyə,
Bir sipər olubdu ana sevgisi.

Bir tikan batırsa əyər barmağa,
Çəkir ağrısını, dözmür o dağa.
Köməksiz qalanda dönür yumağa,
Bulud tək dolubdu ana sevgisi.

Çinar qamətini əzab əyəndə,
İllər saçlarına, qar ələyəndə,
Ana bu dünyadan köç eləyəndə
Çiçək tək solubdu ana sevgisi.

Lənkəran-2024

Həyat

Həyat, sən nə şirinsən,
Kim səndən doydu getdi.
Gedənlər öz qəlbini
Dünyada qoydu getdi.
Bəxtiyar Vahabzadə,
xalq şairi.

Ötən illər xəyal kimi,
Gülür üzə iqbal kimi.
Elə şirinsən bal kimi
Ürəkləri aldın, həyat.

Kimə gülsən, kimə tikan,
Baş açmayır səndən insan.
Ölümlərə verdin meydan,
Özün gendə qaldın, həyat.

Ömür yükü daşıyırsan,
Nəsil-nəsil yaşayırsan.
Biz getsək sə sən qalırsan,
Hey boşalıb doldun həyat.

Lənkəran -2013

85 yaşın sevinci
Yazıçı-jurnalist, poliqrafçı alim Şəddat Cəfərova

Köçəri quş kimi baxdın hər ilə,
Vermədin bir günü küləyə, yelə.
Ucalıq gətirdin bu doğma elə,
Nə yaxşı ömrünə 85 gəlib.

Qonaq tək tutubdur üz ünvanına,
Sənət ünvanına, söz ünvanına.
Halaldan iz düşüb öz ünvanına,
Nə yaxşı ömrünə 85 gəlib.

Bir vaxt Ulyanovskdan gəlsə də səsin,
Vətəndən güc aldı qəlbin, nəfəsin.
Hələ ki, sönməyib gənclik həvəsin,.
Nə yaxşı ömrünə 85 gəlib.

İnsana verilən ömür də paydır,
Sınağı sərt qışdır, bürkülü yaydır.
Niyyətin, məramın Günəşdir, Aydır,
Nə yaxşı ömrünə 85 gəlib.

Zəhmətə bağlandın, düz yaşamağa,
Qoydun hər bir yerdə iz yaşamağa,
Sənin ki, haqqın var yüz yaşamağa,
Nə yaxşı ömrünə 85 gəlib.

Ömrün yüzü də var.....

Yazıçı-jurnalist Yaşar Rzayevin 85 illiyi münasibətilə

Böyüdün Lənkəran havası ilə,
Uyudun Xəzəriun laylası ilə.
Doğma el -obanın qayğısı ilə
Keçib qışın, yazın Yaşar müəllim.

Bərəkət görmüsən sən yağışında,
Duydun yaz havası payız, qışında.
Doğma Lənkəranın hər qarışında
Var pozulmaz izin Yaşar müəllim.

Bərkiyib polad tək canın bu yerdə,
Saflaşıb, durulub qanın bu yerdə.
Mənasız ötməyib anın bu yerdə,
Fəqət ağdır üzün Yaşar müəllim.

Bir ömrü bölsən də sən neçə yerə,
Fəqət pay vermədin əsən yellərə.
Qürurla baxırsan ötən illərə,
Çin olub hər arzun, Yaşar müəllim.

Durur kitabların bu gün yan -yana,
Borclu qalmamısan ötən zamana.
Deməyə hələ də Xan Lənkərana
Bitməyibdi sözün Yaşar müəllim.

Görsən də zamanın hər gərdişini,
Fəqət pozmayıbsan öz vərdişini.
Arxada qoysan da səksən beşini,
Öndə durur yüzün, Yaşar müəllim.

Meşə haqqında ballada

Gecə -gündüz meşədə,
Gəlir baltanın səsi.
Ağacları yıxmağın
Başlanıb bəhshabəsi.

Yaşıl bir genosidə
Məruz qalıb ağaclar.
Dərdini desin kimə,
Fikrə dalıb ağaclar.
Hələ bu azmış kimi
Ağır texnikanın da
Gəlir öz uğultusu.
Hərdən düşünürəm ki,
Yox imiş talançıda
Əzəl insan duyğusu.

Kütləvi qırıntıda
Hətta fərq qoyulmayır
Nadir ağaclara da.
Düşünən yoxdur, nədən?
Axı onlar yer almış
"Qırmızı kitab" da da.

Meşə tamam boşalıb,
Səhralığa dönübdü.
Nə heyvan var, nə də quş,
Sanki həyat sönübdü.

Perikmi düşüb quşlar?
Gəlməyir daha səsi.

Yoxsa göyə çəkilib
Qartalın hayqırtısı,
Sərçənin civiltisi.
Həm turacın, kəkliyin,
Həm bülbülün nəğməsi!

Yollarına göz dikib,
Gözə çöksə də duman.
Nəğməkarları üçün
Meşə darıxıb yaman.

Pələngin, bəbirin də
İtibdi burdan izi.
Ceyran, cüyür də qaçıb,
Tərk edib meşəmizi.

Nə vaxtdır tülkü lələ
Sərbəst gəzib meşəni
Quyruğunu bulamır.
Nə vaxtdır ki, qorxudan
Nə didərgin canavar,
Nə də çaqqal ulamır.
Ağacdələnlərə də
Dəlməyə ağac qalmır.
Meşənin xoruzları,
Meşənin toyuqları
Yuvalanıb hardasa,
Meşəni yada salmır.

Bir yandan boşalsa da,
Bir yandan dolur meşə.
Heyvanların, quşların,

Bitkilərin yerinə
Kafe-restoranların
Sahibi olur meşə.

Meşə indi olubdu
İstirahət mərkəzi.
Əvvəlki əlamətdən,
Heç qalmayıb bir izi.
Meşə olubdu indi
Bahalı restoranın,
Çayxananın ünvanı.
Bir soruşan yoxdur ki,
Meşənin gözəlləri-
Ceyran, cüyürlər hanı,
Bir soruşan yoxdur ki,
Meşənin xan, sultanı-
Pələng, aslanı hanı?

Təbiətin nizamı
Pozulub tamam burda.
Bu ki, bir xəyanətdir
Anamız doğma yurda.

Meşə həyat mənbəyi,
Torpağın göy libası,
Yerin ağciyərləri-
Təmiz abı-havası.
Meşə yaşıl yapıncı-
Dağlar atıb çiyninə.
Yaşıl paltarı kimi
Torpaq geyib əyninə.

Sağlamlıq ondan gəlir,
Havada nə zəhər var,
Udur, batırır meşə.
Bol-bol oksigenini
Daim artırır meşə.

Talançıya, nankora
Qisası var meşənin.
Onu sevən insana,
Ona ürək açana
Səfası var meşənin.

Meşə zəngin xəzinə,
Tükənməz var-dövlətdir.
Nəsildən-nəsillərə
Keçən bir əmanətdir.

Meşə sudur, çörəkdir,
Bunu bilək, insanlar!
Onda sönməz həyat var,
Onu sevək, insanlar!

Lənkəran-2015

Alim ömrü

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeoloji və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru prof. Arif Məmmədova ithaf edirəm.

Götürdün çiyninə elmin yükünü
Vətən tarixinə bir xidmət kimi,
Sən ki, yaşayırsan alim ömrünü,
Tanrıdan verilən bir qismət kimi.

Tarixin qaranlıq məqamlarına
Tarixçi alim tək güzgü tutmusan.
Dözüb bu zamanın sınaqlarına,
Çox vaxt özünü də sən unutmusan.

Sevdin bu torpağı sən dönə-dönə
Qəlbinə hakimdir Vətən tarixi;
Sən ki, çıxarırsan torpaq üstünə
Torpağın altında yatan tarixi.

Tarix ki, sevməyir saxtakarlığı,
Bax elə bundadır işin çətini.
Meyara çevirib xeyirxahlığı,
Qorudun tarixin həqiqətini.

Elmin qartalısan,zirvədə yerin
Qalırsan zirvədə bir qürur kimi,
Fəqət dərs dediyin tələbələrin
Yayılıb hər yerə işıq, nur kimi.

Qarşıdan yol gəlir altımış beşin,
Elmin gülşəninə gül verən alim.
Kitaba dönübdü hər elmi işin,
Daşlaşmış tarixə dil verən alim.

Tez-tez boylanırsan ötən illərə,
Qürurun əyilməz uca dağ olub.
Ömrün sovrulmayıb əsən yellərə,
Vətən qarşısında üzün ağ olub.

Lənkaran- 2025

Dünya niyə sevilməsin?

Dünyanı gözəllik, sevgi xilas edəcək.
Hüseyn Cavid.

Görürük, hər qayğısını,
Diqqətini, sayğısını.
Özü çəkir ağrısını,
Dünya niyə sevilməsin?!

Halal harama qarışıb,
Doğmalar dönüb, yadlaşıb.
İnsan oğlu azğınlaşıb,
Dünya niyə sevilməsin?!

Göyləri barıt qoxulu,
Yerləri xəyanət dolu.
İnsanları qış yuxulu,
Dünya niyə, sevilməsin?!

Naz-nemət də ondan gəlir,
Səxavət də ondan gəlir,
Məhəbbət də ondan gəlir,
Dünya niyə sevilməsin?!

Ana kimi qucaq açır,
Yolumuza işıq saçır.
Qaranlığı bizdən qaçır,
Dünya niyə sevilməsin?!

Götürməyir haqsızlığı,
Xəyanəti, azğınlığı.

Pozulubdu tarazlığı,
Dünya niyə sevilməsin?!

O ki, Tanrı əmanəti,
Göz yummayaq buna qəti.
Dağıdılıb təbiəti,
Dünya niyə sevilməsin?!

Savaşlar da həddi aşır,
Super güclər azğınlaşır,
Yoxsa sonu yaxınlaşır?
Dünya niyə sevilməsin?!

Od bürüyüb yer üzünü,
Tanımırsan çöl-düzünü.
Eşidən yox haqq sözünü,
Dünya niyə sevilməsin?!

Lənkəran-2011

Qoy yaşasın.

Bacarmıram mən ürəklə,
Almısan ağlımı ələ.
Verməyək gəl ömrü yelə,
Qoy yaşasın bu sevgimiz.

Sən fikrimdə, duyğumdasan,
Xəyalımda, yuxumdasan.
Sən solumda, sağımdasan,
Qoy yaşasın bu sevgimiz.

Kaş bu sevgi kama çatsın,
Həsrəti tam silib atsın.
Həyatıma həyat qatsın,
Qoy yaşasın bu sevgimiz.

Lənkəran-2000

Bir də görüşək.

Sənə demək üçün ürək sözümü,
Yolundan çəkmirəm bir an gözümü.
Sənsiz tənha billəm daha özümü,
Səni gözləyirəm, bir də görüşək.

Sən gedən solubdu bu od-ocağım,
Qanqal bitiribdi indi gül bağım.
Təsəlli versə də hər solum, sağım,
Səni gözləyirəm, bir də görüşək.

Sönüb öz əlimlə yandırdığım şam,
Xəyalımda sənsən hər səhər- axşam.
Gəl ki, sənin üçün çox darıxmışam,
Səni gözləyirəm, bir də görüşək.

Bir də görüşək ki, anlaşa bilək,
Niyə sevən ürək incisin gərək?!
Qaytaraq hər şeyi, sevək, sevilək,
Səni gözləyirəm, bir də görüşək.

Son qoyaq üzücü biz bu həsrətə,
Yol açaq əbədi bir məhəbbətə.
Gəl qurban verməyək onu hiddətə,
Səni gözləyirəm, bir də görüşək.

Lənkəran-2001

Səni deyib gəlmişəm

Mənəm səndən zəhər dadan,
Əzab görən, min dərd udan.
Qovma məni gəl qapıdan,
Səni deyib gəlmişəm mən.

Yetər, daha getmə göylə,
Gileyini açıq söylə.
Aşiqini qəbul eylə,
Səni deyib gəlmişəm mən.

Indi mənə belə baxma,
Hər tərəfə su tək axma.
Qəlbimi yandırıb yaxma,
Səni deyib gəlmişəm mən.

Tələş, ötür gənclik çağı,
Təkəbbürdən en aşağı.
Sənə sevgim hədsiz, axı,
Səni deyib gəlmişəm mən.

Dəyiş sevgi ünvanını,
Aşıqini yaxşı tanı!
Qəbul eylə qurbanını,
Səni deyib gəlmişəm mən.

Lənkəran-2002

Yollarıma çıx

Suçum yox, demərəm məni bağışla,
Yudum yollarını bu göz yaşımla.
Sənə sadiq idim canım, başımla,
Dəyişmə yolunu, yollarıma çıx.

Ardınca kölgə tək sürünmüşəm mən,
Sənin gül ətrinə bürünmüşəm mən.
Harada demisən, görünmüşəm mən,
Dəyişmə yolunu, yollarıma çıx.

Odu tükənməyən məhəbbətim var,
Ürəyin hökmünə sədaqətim var.
Səni əfv etməyə mərhəmətim var,
Dəyişmə yolunu, yollarıma çıx,
Yollarıma çıx.

Lənkəran-2000

İlk görüşə tələsirəm

Əlimdə tər-təzə çiçək,
Tez yetişəm ona gərək,
Həyəcanla vurur ürək,
İlk görüşə tələsirəm.

Yağış yuyaydı üzümü,
Tutmayaydı çən gözümü.
Aparmasın yel sözümü,
İlk görüşə tələsirəm.

Yel əsib, dağılıb saçım,
Artıq sözdən gərək qaçım.
Ürəyimi necə açım?
İlk görüşə tələsirəm.

Kaş üzündə gülüş olam,
Gözünə nur kimi dolam.
Kaş qəlbini ələ alım,
İlk görüşə tələsirəm.

Lənkəran-2001

Gəl, ardımca baxma daha

Görüşlərin izi itib,
Bu yol, izdə tikan bitib.
Artıq sevgi sona yetib,
Gəl, arxamca baxma daha.

Dilimizdə söz ağlayır,
Belə baxma, göz ağlayır.
Ocaq sönüb, köz ağlayır,
Gəl, arxamca baxma daha.

Ürəkdə min acı-ağrı,
Necə baxım sənə sarı.
Yollarımız indi ayrı,
Gəl, arxamca baxma daha.

Xəzan oldu çiçəkli yaz,
Vüsaldan gəlmir bir avaz.
Getdiyimiz yol qayıtmaz,
Gəl, arxamca baxma daha.

Özgə doğma, mən yad oldum,
Qınaqlardan azad oldum.
Sanki təzədən doğuldum,
Gəl, arxamca baxma daha.

Lənkəran-2003

Mən səni görməyəndə

Həsrət üşüdür canı,
Damarda axan qanı.
Görmürəm bu cahanı,
Mən səni görməyəndə

Sözümə baxmır durum,
Gedir ağlım, şüurum.
Sınır tamam qürurum,
Mən səni görməyəndə.

Min dərdə tuş oluram,
Yaralı quş oluram.
Niyə bihuş oluram?
Mən səni görməyəndə.

Sənsən Günəşim, Ayım,
Tanrıdan gələn payım.
Bilinmir qışım, yayım,
Mən səni görməyəndə.

Yolumda bitən çiçək,
Sənə bağlıyam gerçək.
Çarpmaqdan qalır ürək,
Mən səni görməyəndə.

Demə, sən həyatımsan,
Qolumsan, qanadımsan.
İçimdə fəryadımsan,
Mən səni görməyəndə.

Lənkəran-2001

Məndən incimə

Niyyətin bəllidir, gizlətmə məndən,
Ayıra bilmirsən dostu düşməndən.
Doymadın sən gözə kül üfürməkdən,
Yalandır hər sözün, məndən incimə.

Hiylə yuvasına çevrilib gözün,
Hələ olmayıbdı bir doğru sözün.
Haqdan danışırsan, haqsızsan özün,
Vardır iki üzün, məndən incimə.

Sənə qoymadı ki, o tamah, maraq,
Olasan ömründə kiməsə dayaq.
Hələ yuxudasan, deyilsən oyaq,
Yoxdur bir xoş izin, məndən incimə.

Bədxahlıqda özün hələ ki, təksən,
Bütün varlığınla hiylə, kələksən.
Dünyanın varını başına töksən,
Özgəyədir gözün, məndən incimə.

Lənkəran-2014

Yaralıyam mən

Sevgini bəxşiş tək hamıya atma,
Mənim haqq sözümə nahaqqı qatma.
O sevgi andını heç vaxt unutma,
Əzəldən əhdimə vəfalıyam mən.

Keçənlər bir daha qayıdan deyil,
Yatmış duyğuları oyadan deyil.
İlk görüşdən keçib artıq neçə il,
Səndən gen gəzirəm, aralıyam mən.

Sənki ucuz tutdun məhəbbətini,
Sevgiylə sınadın səxavətini.
Fəqət qorumadın sədaqətini,
İndi qəm yeyirəm, cəfalıyam mən.

Heyrət bürüsə də indi çoxunu,
Atsam da gözümdən sevgi yuxunu.
Vurdun ürəyimə həsrət oxunu,
Sağalmır, ürəkdən yaralıyam mən.

Lənkəran-2000

Görəsən

İllərdir gəzirəm, ürək narahat,
Elə bil sönübdü gözümdə həyat.
Ürəyimcə deyil nə toy, nə büsat,
Bu həsrətin sonu varmı, görəsən?

Bir təəssüf hissi keçir ürəkdən,
Sevgimiz mənzilə çatmasın nədən?
Bu həstətin gördüm əvvəlini mən,
Bu həsrətin sonu varmı, görəsən?

Hər zaman bu sınıq könlüm səninlə,
Özüm səndən ayrı, ruhum səninlə.
Fikrim, həyəcanım, duyğum səninlə,
Bu həsrətin sonu varmı, görəsən?

Töküldü sinəmə həsrət göz yaşım,
Sevgi qarşısında əyilir başım.
Sən ey qəlb həmdəmim, könül sirdaşım,
Bu həsrətin sonu varmı, görəsən?

Mən sənsiz baxıram Günəşə, Aya,
Sənsiz ötən ömrü almıram saya.
Hər gün yalvarıram ulu Tanrıya,
Bu həsrətin sonu varmı, görəsən?

Lənkəran-2000

Bu görüş

Mən səni sevmişdim bir həyat kimi,
Sadiq aşiq kimi, bir fanat kimi.
Görüşdün mənimlə tamam yad kimi,
Ayrılıq havası çaldı bu görüş

Sən nə tez unutdun olub keçəni,
Unuda bilərmi sevən sevəni?!
Ayağa atmaqla öz aşiqini,
Çıxılmaz bir dərdə saldı bu görüş.

Ayaq dəyən yerə baş qoymuşam mən,
Olub umacağım yalnız sevgidən.
Bəs görən indi nə düşünürsən sən?
Yoxsa da xəyala daldı bu görüş.

Son görüş tək hər şey bitdi bu yerdə,
Bir sevginin izi bitdi bu yerdə.
Sanki həyat sona çatdı bu yerdə,
Əbədi həsrətə yetdi bu görüş.

Bu görüş yerinə bir də baxıram,
Həsrətdən od alıb yanıb yaxıram.
Dönüb bir buluda yerə yağıram,
Məni özümdən də aldı bu görüş.

Lənkəran-2003

Getdin

Narahat dənizdir ürəyim yenə,
Fəqət dincliyimi aparıb getdin.
Gəncliyi pul kimi xərclədim sənə,
Qaynar gəncliyimi aparıb getdin.

Həsrət qatarının yolu nə uzaq,
Ayağım altında titrəyir torpaq.
Olmuşam sazaqda üşüyən yarpaq,
Sevginin odunu azaldıb getdin.

Dəyib inamına şübhənin çoxu,
Gözümə bir anlıq getməyir yuxu.
Bax, səni qınayır hələ ki, çoxu,
Ümidi də məndən qoparıb getdin.

Olmuşdun qəlbimin mütləq hakimi,
Ən şirin arzusu, yaxın həmdəmi.
Güldanda soluxan çiçəklər kimi,
Xəzan yarpağı tək saralıb getdin.

Ayrılıq ruhuma bir tufan salıb,
O görüş yerimiz sükuta dalıb.
Sən həyat eşqimi əlimdən alıb,
Aşiqi ölümə saxlayıb getdin.

Lənkəran-2000

Mündəricat

ÖN SÖZ VƏ NARAHATLIĞIN POETİK ƏKS-SƏDASI 3
Azərbaycan 12
Ulu Öndər 14
Təbiət sevgisi 16
Vətən 21
Qarabağdadır 23
Şəhidlər 24
Zəfərdə payın var 25
Erməni yalanı 27
Ana Vətən 29
Qarabağ Şahini 32
Şəhid ömrü 34
Çəliklə gəzən qazi 36
Şəhid qardaşım 38
Masallı şəhidin var 40
Adnalı kəndində bir şəhid yatır 41
Son döyüş yeri 42
Dağların vüqarlı oğlu 43
Zirvədən baxırsan 44
Vətən çağırdı səni 45
Dərs deyirdi gələcəyə 46
Bir kimsəyə qalmır dünya 48
Cənub mirvarisi 49

Lənkəranım.....51
Xan sarayı.....53
Xəzər 54
Səpnəkəranda.....55
Ömür də bir borcdur. 57
Ata ocağı.....58
Kitab 60
İnsan 61
Həkim 62
Ata 63
Ay ana.....65
Ana sevgisi 67
Həyat 68
85 yaşın sevinci 69
Ömrün yüzü də var..... 70
Meşə haqqında ballada 71
Alim ömrü 75
Dünya niyə sevilməsin?.....77
Qoy yaşasın. 79
Bir də görüşək.....80
Səni deyib gəlmişəm.....81
Yollarıma çıx 82
İlk görüşə tələsirəm 83
Gəl, ardımca baxma daha 84
Mən səni görməyəndə.....85

Məndən incimə 86
Yaralıyam mən 87
Görəsən 88
Bu görüş 89
Getdin 90

Leyla Məcidova
Dünya niyə sevilməsin?

Naşir: Ceyhun Əliyev
Texniki redaktor: Yeganə Rəfiyeva

Yığılmağa verilib: 17.05.2026
Çapa imzalanıb: 09.06.2026
Tiraj 100, şərti çap vərəqi 6
“Ecoprint” nəşriyyatının mətbəəsində çap olunmuşdur.
Tel: +994 55 216 09 91